

# Əbədiyaşar sənətkar

*Fikrən keçmişə qayıdaraq yaşanmış illərə üz tuturam. Bilmirəm bu gün maraqlıdırmı? Onda nə qədər sevinc və işıq ola bilər. Həyat necə də ziddiyyətlidir. Bilirsinizmi, bu sevinc ilk baxışdan çox sadə görünən əşyada, hadisələrdə, əhvalda ola bilər... Amma nə qədər elə kədər və facia var. Onlar da bizi bütün ömrümüz boyu müşayiət edir.*

Bəzən də bu kədər hətta sevinclə əhatə olunmuş kimi görünən bir əşyada yaranır. Bax belə ziddiyyətli vaxtlar mənim həyatımda da çox olub. Əsasən də uşaqlığımda və gəncliyimdə.

1950-ci ildə İ.Y.Repin adına Leninqrad Rəssamlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunu bitirmiş Azərbaycanın ilk ali təhsilli heykəltəraş qadını, Azərbaycan Respublikasının İncəsənət xadimi Abdullayeva Həyat Həmdulla qızı deyirdi: Mən heç vaxt heykəltəraşlıqla maraqlanmamışam, rəsm çəkməyi sevirdim. Mənzərəni xoşlayırdım. Ətrafda müşahidə etdiyim hər şeyin şəklini çəkirdim. Dərbənddə doğulduğum evin pəncərəsindən baxardım. Mən çəkərək dünyanı dərk edirdim. Qədim Dərbənd küçəsini, tarixi qədər qədim olan divarları, həyətdəki ağacları, çardağından dəniz görsənən evi. Dənizdəki üfüqləri, parıldayan alaqaranlıq dalğaların üzərindəki... balıqçı qayıqlarını, günəşin doğmasını və yolun əvvəlini hansı ki, üzümlüklərlə və bağlarla qovuşur və gözdən itir. Həyat xanım deyirdi: «Bu həyat o vaxtı da sakit olmayıb, mən Dərbənddə keçirdiyim uşaqlığı az xatırlayıram, ancaq yadımdadır. 1918-ci il daşnaqların orduları və onların qurbanları türklərin orduları (onların başçıları). Türkləri şəhərin küçələrində xilaskar kimi qarşılayırdılar. Necə yadımdadı, zirzəmidə gizlənirdik. Qışqırırdılar «Ermənilər gəldilər, ermənilər gəldilər». Halbuki, bizim evdə türklərin rəhbəri Yusif İzzət Paşa yerləşdi. Xatırlayıram, bu vaxtı 3-cü qardaşım dünyaya gəlmişdi, hansı ki, xilaskar İzzət Paşanın şərəfinə onu Yusif adlandırdılar.

Həyat xanım deyirdi: «Biz Bakıya gəldik, gəmidən düşdük və qohumumuz Hacı Zeynalabdin Tağıyevin evində yerləşdik. Biz Tağıyevin gözəl 8 №-li 3 mərtəbəli evinə gəldik. Orada çox yaşamadıq. Qırmızı Ordu gəldi və bizi evimizdən çıxartdılar. Evimizi öz xidmətləri üçün istifadə etməyə başladılar. Sonra ordu geri qayıtdı. Bizim ailə yenidən həmin evə köçdü. Otaqların bir qismində biz yaşayırdıq, bir qismini isə atam Dərbənddən olan tanışlarına vermişdi. Zarafatca bu evi «Dərbənd koloniyası» adlandırmışdılar.

Həyat xanım deyirdi: «Mən işə getdim. Mitinq başlandı. «Xalq düşmənləri»nin adları sadalanan zaman mən insanların arasında dayanmışdım. Mənimlə yaxşı rəftar edirdilər. Sabahı gün mən dəzgah başına keçən zaman direktor mənə yaxınlaşdı və dedi: «Bu gündən işə gəlmə». Mən işsiz qaldım. Sonra təhsilimi davam etdirib məktəbi bitirdim. Xalq komissarları təşkilatında telefonçu işləməyə getdim. Bir müddət işlədikdən sonra mən «işçi dərəcəsi» qazanıb instituta qəbul olunmaq üçün yenidən sənayeyə işləməyə getməyi qərara aldım. Şmidt adına zavodun kompressor sexində dəzgah yağlayan işləyirdim. Bu təhsilim üçün çətin, lakin vacib yol idi.

Timirzayev akademiyasına qəbul olan rəfiqəsindən məktub alır. Həyat Abdullayeva Moskvaya təhsil almaq üçün getdi. O, burada çətinliklə qarşılaşdı. Həm yaşamaq, həm də təhsil almaq üçün işləmək lazım idi. Həyat xanım Moskva metropoliteninin tikintisində torpaq ölçürdü, yer qazırdı, qurğunu qururdu, gecə növbəsində işləyirdi. Yalnız gündüz gərgin işdən sonra öz rəfiqəsinin yanında dincələ bilirdi. Əmək birjası vasitəsilə sonra o, təyyarə düzəldən zavodda pərçimçi və fizelyaj sexinə işə düzəlir. Burada o, nəhayət ki, sığınacaq tapır və bütün qışı işləyir. Amma evə gəlib oxumaq istəyir. Bu zaman onun ailəsini Bakıdakı mənzillərindən növbəti dəfə çıxardırlar. Amma o, qayıdır. Mən riyaziyyatı yaxşı bildiyimdən AZİ-nin «Maşınqayırma» fakültəsinə daxil oldum. Maraqlı idi. Yenə də təqiblər başladı, institutdan getməli oldum. Mən buna çətinliklə dözməli oldum. İşləmək lazım idi. Mən Azərbaycan Kənd Təsərrüfatı Trestində makinaçı işlədim. Ailə həyatı qurdum, amma uğurlu olmadı, ayrıldıq. Qərara gəldim ki, özümə yaxşı bir yol axtarım.

Təsviri sənəti hələ uşaqlıqdan sevdiyim üçün, sənədlərimi çəkdiyim şəkillərlə birlikdə Bakı Rəssamlıq məktəbinə gətirdim (Əzim Əzimzadə adına). Təsviri sənətə məhəbbətim aydın görünürdü. Mənim işlərimi görüb məni heykəltəraşlıq fakültəsinə qəbul etdilər. Ancaq mən boyakar rəssam olmaq istəyirdim. Heykəltəraşlıq bölməsində tanınmış heykəltəraş Pyotr Sabsay dərs deyirdi: ilk günlər mənə çox çətin idi. O vaxtlar heykəltə-

Aliyanın nakam taleyinə acıyaraq bu əsəri yaratmışdı. Obrazın hakim olduğu bütün cizgilərin özünəməxsus oxşarlıqla canlandırılmasına heyrət edirəm. Sənətkar təkcə oxşarlıq yaratmaqla əsəri tamamlayır. Şəxsiyyətin bütövlükdə daxili aləmini canlandıra bilmək istedadı sənətkara nəsib olub.

«Oturmuş çılpaq qadın» obrazını işləmiş, AFR-də yaşayan qardaşına hədiyyə olaraq bağışlamışdır. Obrazda qadın gözəlliyi təsvir olunmuşdu. Lirika, incə təbəssüm, gözəl saç düzümü, hər bir detal öz gözəlliyilə işlənmişdi.

1957-ci ildə «Məlikməmməd»in nağılı əsasında Südabə Əliverdibəyova ilə birlikdə işləmişdi.

«Xalça toxuyan qadın» yüksək texnikaya və mürəkkəb çeşidə malik olan buxovlu xalça kompozisiya və dolğun koloritli bəzəkləri, forma zənginliyinə və rənglərin əlvanlığına görə H.Abdullayevanı bu əsəri işləməyə sövq edib. Sənətkar hər bir mövzuya müraciət edəndə özü həmin sahənin sanki sənətkarı olub və onu iş başında tərənnüm etməyi, ilməni necə vurduğunu, bütün fikrini ilməyə, naxışa cəmləyən bu zərif qadın heykəlini yaratmışdı.

«Müharibədə həlak olanların xatirəsinə» heykəltaraş Südabə Əliverdibəyova ilə birilkdə işlədikləri «Ana» abidəsində də ananın daxili aləmini, gözləri yol gözləməkdən yorulmuş «Vətənsiz ana olmaz» ifadəsini vermişdi. Azərbaycanlı anasına məxsus bütün zəriflik, ananın çəkdiyi iztirablar obrazda öz əksini tapır. *1956-57.*

«Vaqif» Şuşada. Molla Pənah Vaqifin xatirəsinə ucaldılmış abidə (1957-ci il) H.Abdullayevanın Azərbaycan poeziyası tarixində mühüm yer tutan, qəzəl, müxəmməs, müstəzad yazan, şifahi xalq ədəbiyyatı, aşıq şerilə daha çox bağlı olmuş, təcnis, xüsusən qoşmalarılə milli poeziyanı zənginləşdirən şairin portretini qabarıq şəkildə əks etdirmişdi. Gözəllərin vəsfi, insanı fiziki və mənəvi cəhətdən kamil, harmonik inkişafda görmək istədiyi təki. H.Abdullayevanın M.P.Vaqifin xatirəsinə sənətkarlıqla ucaltdığı Vaqif obrazı Azərbaycan təsviri sənətinə zəngin bir xəzinə kimi daxil olmuşdu. Şairin çöhrəsini ilhamın qüdrəti və zəka nuru ilə işıqlandırmışdı, tükənməz mənəvi qüvvəyə malik olduğunu göstərmişdir. Başında naxışla bəzədilmiş çalma, əynində arxalıq obrazı gözəl əks etdirir. Heykəltəraş ümumi mənəvi keyfiyyətlərinin rəngarəngliyini, fikirlərinin ardıcıllığını bir yerə toplayıb insan simasında cəmləşdirib ümumiləşmiş şəkildə əks etdirmişdi.

H.Abdullayeva heykəltəraşlıq sənətinin inkişafında öz dəsti-xətti olan təkrarolunmaz sənətkardı. 1950-ci ilin ortalarında kiçik formada kompozisiyalı Nizami Gəncəvinin «7 gözəl» əsəri (farforda) tətbiqi sənət sahəsində ən baxımlı işdi: Nizaminin 7 gözəl və Bəhram poemasının motivləri əsasında yaranmış heykəllər silsiləsi. Bu işlər müəllifin qadın portretində rəngarəngliyə, psixoloji tamlığa cəhd etməsindən xəbər verir. Hər bir millətin özünün müsbət, kəskin xarakterini, geyimini, düşüncə tərzini, incəliyini böyük ustalıqla verə bilmişdi. «7 gözəl» əsərində olduğu kimi heykəltəraş da müsbət qadın surətlərini aydınlığı ilə təsvir etmişdi.

Ərəb qızının obrazını, mehriban, mərhəmətli kürd qızını, elmi, qəhrəmanlığı və zirəhliyi qiymətləndirən Slavyan Şahzadəsi kimi surətlərlə yanaşı Fitnə obrazını da gözəl rəqqas, mahir musiqiçi kimi cəsarətlə bu qızların simasında cəmləşdirmişdi.

Heykəltəraşlıq obrazlarının uğurlu ifadəsini bəstəkar Qara Qarayev Həyat xanıma yazdığı məktubundakı xoşa gələn sözlərlə xəbər verir. Q.Qarayev «7 gözəl» heykəltəraşlıq kompozisiyası haqqında demişdir ki, «Sizin işiniz zəriflik və ilham poeziyası ilə doludu. Ya bu rəssamların məktəbinin binasının fasadıdır, ya da bu məktəbin heykəltəraşlıq sinfidir». Q.Qarayevin məktubunun mətni onun heykəltəraşlıq işlərini ardıcıl əks etdirir.

H.Abdullayeva Şəfiqə Zeynalova ilə birlikdə 26 Bakı Komissarlarının abidə konkursunda 2-ci yer tutmuş və mükafata layiq görülmüşdü.

Vilyam Şekspirin «Hamlet» əsərində yaratdığı insanın mənəvi aləmini həyatın və insan xarakterinin ziddiyyətlərinə həsr etmişdi. Həyat xanım həyatın mənfi cəhətlərini, insanların eybəcər əməllərini tənqid edir. Təmiz vicdanlı, möhkəm iradəli Hamlet surətilə tamaşaçısını ülvilik və gözəllik aləminə qovuşdurur. Sənətkar Hamletin faciə və mübarizəsinin tamaşaçılar tərəfindən asanlıqla dərk edilməsinə nail ola bilmişdi.

1958-ci ildə «Qaçaq Nəbi» qəhrəmanlıq dastanına əsasən yaratdığı müasir qadın mövzusuna qanuna uyğun şəkildə xarakterin genetik növlərinə, xalqın şanlı tarixi keçmişinə, onun ən yaxşı qadın nümayəndələrinə Nizaminin qadın obrazlarını Qaçaq Nəbinin igid yoldaşı döyüşkən Həcər obrazılə əlaqələndirdi. O, keçmişlə gələcəyi birləşdirməyə çalışırdı. Həcər obrazı namuslu, sədaqətli, son dərəcə mübariz, böyük ürəkli, silahına sarılmış, düşmənlə vuruşan qəhrəman kimi təsvir edilmişdi. Cəsur qadının hiss və həyəcanını çöhrəsində məharətlə əks etdirmişdi. Qəhrəmanın atı yel kimi uçan, öz sahibini müxtəlif təhlükədən qurtaran, hətta onun ürəyindən keçənləri bilən, düşmənin gəldiyini duyub onu xəbərdar edən köməkçi kimi təsvir edilir. Qəhrəmanın inandırıcı bədii obrazını atın üzəngəsindən tutmuş düşmənin gəlişini hiss edərək şahə qalxmış atı və bütövlükdə obrazı monumentallıqla yaratmağa müvəffəq olur. Xüsusi mərdlik və mənəvi saflığı və eyni zamanda cəsarətli gücü harmoniyanı ümumiləşdirilmiş şəkildə əks etdirir. Həcər obrazı çox böyük bir həvəs, temperament ilə yaradılmışdı.

Bizim bu əcdadımız - general Balakişi Ərəblinskinin tarixi maraqlıdır.

Hələ uşaq ikən Şamilin oğlu dağlıların rəhbəri idi. Ruslara əsir düşmüş və Peterburqa göndərilmişdi. Orada o, hərbi təhsil almış, xristianlığı qəbul etmiş, sonra işə Qafqaza göndərilmişdi. Burada o, rus dilində hətta bir söz bilməyən azərbaycanlı ilə evlənməyi qərarlaşdırdı. O



da öz növbəsində azərbaycanca bilmirdi. Onların 3 qızı olur. Biri Hacı Zeynalabdin Tağıyevin oğluna getmiş, digəri isə Dağıstanlı Usmiyevə, bu mənim nənəm idi, və nəhayət, görmədən gözəlliyindən məftun olduğu, Hacı Zeynalabdin Tağıyev 3-cü qızla evlənir. General Ərəblinski öləndə onun tabutunun ardınca molla da, keşiş də gedirdi.

Həyat xanım son zamanlarda deyirdi: «Mən həyatımda baş verən gözlənilməz tale yüklü hadisələr, məndən uzaqda olan qohumlarım və qardaşlarım haqda düşündüm. Onlar Almaniyada yaşayırlar. Orada onların həyatı yaxşı qurulub. Onlardan biri akademikdir, o biri isə şirkət prezidentinin müavini olub. Mən onlarda olmuşam. Onların ailələrində uzun müddət qonaq qalmışam. Almaniyanın şəhərlərini gəzdim, çox şey gördüm və eşitdim. Moskvada da kiçik qardaşımgildə olmuşam. Bilirsinizmi, öz qohumlarımla gəzişmək, mənə doğma və yaxın olan insanlarla ünsiyyətdə olmaq çox xoş olsa da, mən öz evimdən, öz şəhərimdən, öz emalatxanamdan uzaqda, dostlarım və həmkarlarım olmayan yerdə çox qala bilməzdim».

Respublikamızda görkəmli sənətkarların yaratdığı əsərlər sırasında H.Abdullayevanın «Molla Pənah Vaqif»in və «Xurşud Banu Natəvan»ın da heykəli xüsusi yer tutur.

«Maksim Qorki» - yazıçı, sovet ədəbiyyatının banisi. H.Abdullayeva böyük bədii sənəkarlıqla dahi yazıçının canlı obrazını yaratmışdır. 1925-ci ildə Bakıya gəlmiş, Azərbaycanın iqtisadi-siyasi tərəqqisinin şahidi olmuş M.Qorkinin xatirəsinə monumental, uzaq və yaxın məsafədən görümlülüyü ilə mənalı obraz yaratmışdır. Obrazın əsas cizgilərinin tapıldığı aydın müşahidə olunur. Heykəlin quruluşunu, onun hərəkətini, kompozisiyasını təşkil edən bütün elementlərin əlamətlərini əsaslanaraq vermişdi. M.Qorkinin heykəlinə baxarkən sanki onun tamaşaya qoyulmuş «Həyatın dibində» pyesinə tamaşa edirsən.

H.Abdullayeva fərqlənən orijinal ifadəli obraz yaratmışdı.

«Heykəl M.F.Axundov» adına kitabxananın fasadında qoyulmuşdu.

H.Abdullayeva bir çox mövzulara müraciət etsə də yaradıcılığının çoxunda məhəbbət lirikasında dünyəvi hissləri təsvir etmişdi. Bu da sənətkarın yaradıcılığının zirvəsidir. Çox mənalı, təkrarolunmaz, saf, təmiz, səmimi, nəcib, sədaqət, səmimiyyət, vəfa kimi gözəl əxlaqi keyfiyyətlər, yaradıcılığında sevənlərin rəngarəng gözəlliklərinin təsviri mühüm yer tutur. Həyat xanımın həyat eşqi çox güclü idi. Həyatı sevir, onun gözəlliklərinə öz yaradıcılığında dönə-dönə qayıdır. Məna dərinliyini məharətlə başqalarına çatdıran, öz qarşısına bədiilik tələbi qoyan, insana estetik zövq verən məhəbbət obrazları yaratmağa çalışmışdı. Bədii təsvir vasitəsilə sevənlərin fədakar eşqini, kədər və qüssəsini misilsiz bir məharətlə təsvir edir. «Bahar» (Azərbaycan Rəsm Qalereyasında gildən - 1960).

«Bahar» əsərində sevgi, məhəbbət, insan duyğuları da bahar suları kimi aşıb-daşır. Sevən gənclərin duyğularını bahar təravəti kimi açıq-aydın göstərə bilmişdi.

***"Cavanlıq"*** (1961-ci ildə işləmişdir).

Gənclərin incə, zərif duyğularını təbiətin qoynunda başlarını bir-birinə söykəməklə sakit oğlan və qız öz hisslərini bir-birinə çatdıra bilirlər. Elə bil bütün ətraf lal sükuta qərq olmuşdur. Təbiət də bu sükutdan zövq alır.

***«Lay-lay».***

Həyat xanımın uşaqlara həsr olunmuş məzmunlu kompozisiyaları yaradıcılığında xüsusi yer tutur. 1960-cı ildə ana və uşaqlara olan sevgisinə «Lay-lay» əsərində gənc ananın öz körpəsini məhəbbətlə əzizləməsini, çılpaq ayaqları üstə qoyaraq yırğalayan ifadəli hərəkətini, onun tez böyüyüb boya-başa çatmasını, arzularını, lay-lay çalmasını, gənc ananın mənəvi aləmini, həyat eşqini, uşağın anaya oxşarlığını, ana və balanın sevincini, həyatın gerçəkliklərini düzgün, dəqiq təsvir edir. Heykəltəraşın insanlarla sıx münasibəti onu müasir insana məxsus yeni-yeni cəhətləri tərənnüm etməyə həvəsləndirir.

Başqa bir «Ana» obrazında Ana öz körpəsini belinə bağlayıb iki əlilə tutaraq onu sakitləşdirir. Daşın üstündə narahat oturaraq ərinin yolunu gözləyir. Sanki təbiətin bütün gözəlliyi Ana və körpəsinin simasında verilmişdir. Başları bağlı, zərif, incə zövqlü azərbaycanlı qadında olan xüsusiyyətləri sənətkar cəmləşdirmişdir.

***«Kolzozçu qız».***

İstirahət vaxtı kompozisiya surəti sərt və ifadəli üzünün nəcib cizgilərini, uşaqlara baxan baxışını, saçlarını örpəyilə çalan, iş paltarında əllərini bir-birinin üstünə qoyub, ayaqları yalın istirahət edir. Sənətkarın yaradıcılığında milli xüsusiyyəti hər bir detalda aydın qabarıq özünü göstərir.

Məcnun rolunun parlaq ifaçısı olan Hüseynqulu Sarabskinin qəbirüstü abidəsi çox maraqlandırır.

Məcnun obrazı böyük Nizaminin əsərində olduğu kimi təsviri sənətdə də nadir sənət incilərindəndir. Qeyri-adi məhəbbətlə işlədiyi bu əsər müxtəlif çalarlarla zənginləşmiş kamil bitkin sənət əsəridir. Sənətkar məhəbbət heykəli yaratmışdır. Surətin tamlığı, psixoloji dərinliyi və nəcib təmiz hissləri təfəkkürün zirvəsinə qaldırmışdı. Həyat xanım insan duyğularını ehtirasla təsvir edən, sənəti yaşadan, əbədiləşdirən, gözəlləşdirən sənətkar idi. Mədəniyyət xadimlərinin, zəhmət adamlarının, istehsalat qabaqcıllarının, zəmanəmizin müasir qəhrəmanı haqqında canlı və dolğun surətləri onun sonrakı yaradıcılığında da yer tutan mövzudan xəbər verir.

Azərbaycanın Əməkdar İncəsənət xadimi H.Abdullayeva portret, mənzərə və tematik tablolar çəkmiş, boyakar rəssam «Vəcihə Səmədova»nın kompozisiya aydınlığı ilə fərqlənən zəngin, dolğun obrazını yaratmışdı. H.Abdullayeva parlaq, istedadlı sənətkarın yarım fiqurlu portretini naturadan işləmişəm deyirdi. Mən onun həm

sənətini, həm də özünü dərin bir məhəbbətlə sevirdim. Onun həyatının son günləri idi. Mən bu portreti işləyərkən o, hər gün mənə deyirdi: «Tez ol, mən öləcəyəm, iş yarımçıq qalacaq». Vəcihə xanımın portretini mən bütün varlığımla, ruhən, qəlbən yaratmışam. Obrazın mənalı gözləri, baxışı, yaddaqalan dəqiq sifət cizgiləri, milli xüsusiyyətləri onun iradəsini, dözümünü, nikbinliyini, bütövlüyünü göstərir və tükənməz yaradıcılıq qüdrətinə malik bir sənətkar obrazı yarada bilmişdi.

*«Şah İsmayıl Xətai» portreti.*

XV əsrin sonunda yaşamış siyasi sima, böyük dövlət xadimi, qüdrətli şair, «Bəhnamə» divanı, «Nəsihətnamə» əsəri və qoşmalar məcmuəsi yazmış, Səfəvilər dövlətini yaratmış «Şah İsmayıl Xətai»nin portreti öz bitkin və ümumiləşmiş kompozisiyası ilə diqqəti cəlb edir. Nadir şəxsiyyət olduğunu, qətiyyət və müdrikliyini əks etdirir. Portret oxşarlığına diqqətlə yanaşır. Sifət ritminin incəliklə yapılması sayəsində nail olmuşdur. İstedadlı şairin, dövlət xadiminin təbiətini, dərin hisslərini, fikrini, mənəvi zənginliyini, özünə aid geyim formasını sənətkar bütün yazılan və təsvir edilənlərdən fərqli Şah İsmayıl Xətainin xatirəsinə olduqca dəyərli bir portret yaratmışdı.



Həyat xanım ömrünün 18 ilini respublikamızın qocaman Rəssamlıq məktəbi hal-hazırda Əzim Əzimzadənin adını daşıyan məktəbdə işləmişdi. Onun yetirmələri arasında öz işinin mahir ustası olan, hazırda respublikanın məşhur rəssamları da var. Bu illər ərzində o, 50-ə yaxın heykəltəraşlıq işi yaratmışdı. İşdən işə keçdikdə o, heykəltəraş kimi mükəmməlləşmişdi.

*«Sənsiz».*

Həyat xanım deyirdi: «Bütün işlərim mənə əzizdi. Hər əsərim gözümün nuru və ürəyimin hərarətidir. «Sənsiz» əsəri isə mənə daha əzizdir. Çox əziz bir adamım var idi, onun ölüm xəbərini eşitdim, bu xəbər mənim varlığımı sarsıtdı. Və elə bildim ki, həyat döndü. Həmən gecə səhərə qədər işlədim. «Sənsiz»in eskizini yaratdım. Sonra da obrazı tamamladım. Bu əsər mənim daxilimdi. Sənsiz qalan təkliyimdir, keçirtdiyim kövrək hissləri «Sənsiz»də görürəm.

2006-cı ilin aprelin 21-i günü «Sənsiz»in kimi biz də sənsiz qaldıq. Bu acı xəbər Sizi və yaradıcılığınızı sevənləri sarsıtdı. Sənətinin pərəstişkarı olduğum üçün əvvəlcə Sizi görməyə tələsirdim, geri qayıdanda isə «Sənsiz» əsərinin qarşısında dayanıb keçmiş xatirələri yada saldım. Aydın oxunan cizgiləri, dalğın duruşu, zərif təbiəti, daxili zənginliyi, bütün varlığınla öz daxili və xarici aləmini yaratmısan. Əsərə baxdıqca acılı-şirinli xatirələrdən ayrılmaq olmayırdı. Heç vaxtı tərifləri xoşlamazdız, deyəndə ki, sizin yaratdığınız obrazların kompozisiyaları heç bir rəssamın əsərlərinə bənzəmir, deyirdiz necə ola bilər axı. «İnstitutun 5-ci kursundan mən bir gözümü itirmişəm, bütün işləri tək gözümlə işləmişəm. İşləyərkən yuxarıdan aşağı baxırdım. Tək gözümlə mən tamam görə bilmirdim». Sonra da xəyala dalıb deyirdiniz: «Mənim ürəyimin hərarəti əllərimə keçib, yəqin ona görə yaratdığım obrazlar baxımlıdır». Sizin yaratdığınız obrazlarda oxşarlıqla bərabər hissiyyat hərəkətləri var. Forma kamilliyilə məzmun gözəlliyi vəhdət təşkil edir. Çoxcəhətli yaradıcılığınızda nikbinlik və həyatsevərlik duyğuları üstün yer tutur. Sən ölməyibsən, «Sənsiz»inlə, «Analıq» əsərinlə birlikdə yaşayırsan. Milli heykəltəraşlığın zəngin ənənələrini çoxillik yaradıcılığınızda, təsviri və tətbiqi monumental sənətimizin inkişafı yolunda forma kamilliyilə məzmun gözəlliyi vəhdət təşkil edən bənzərsiz heykəltəraşsız. Qeyri-adi yüksək romantik, lirik keyfiyyətləri həmkarları arasında yüksək bədii zövqə və müşahidə qabiliyyətinə görə fərqlənən Azərbaycan Rəssamlıq məktəbinə ölkəmizin hüdudlarından kənarda da şöhrət qazandırmışdı.

Qorxmaz Sücəddinov:

Mən Həyat Abdullayevanı çox sevirəm. Bir heykəltəraş, bir sənətkar, bir ustad kimi. Baxmayaraq ki, o, mənim anamdan 2 yaş böyükdü. Mən onu həmişə özümə bir yoldaş bilirəm. Hamımız ona Elya deyirik. Mən Eylanın tələbəsi olmuşam, ancaq ona bir ustad kimi baxmışam. Bizim emalatxanamız bir binada idi. Həmişə bir işdə çətinlik çəkəndə onu çağırıb ondan məsləhət alırdıq, çünki onun fikri, göstərişi mənim üçün çox önəmli idi. Mən indi istəmirəm onun yaradıcılığından söz açam. O sənətşünasların işidi. Ancaq onu deyə bilərəm ki, onun böyük zövqü var idi. O da sənətçi üçün çox önəmlidir. Mən hələ tələbə zamanı ona məktublar yazırdım (O akademiyanı bitirib Bakıda işləyirdi). Onun fikirləri, həyata baxışı, sənətə münasibəti mənim üçün çox qiymətli idi. Məni Həyat xanıma birləşdirən məsələ də var, o da 1937-ci ilin faciəsidir. Bizim atamız o faciənin qurbanı olub və biz ikimiz də çox ağır günlər keçirmişik. Həyat xanım olduqca təmiz, heç vaxt yalan danışmayan, ürəyi gənc və geniş bir insan idi. Ona görə də mən onu sevirdim.

**Elmira MƏSİMLİ**